**P.G.ƏLİYEVA**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*e-mail: pakiza.aliyeva.g@gmail.com*
**:https://orcid.org/0009-0001-8982-2654**

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 134)

**10.62021/0026-0028.2025.4.236**

# UİLYAM QOLDİNQİN "MİLÇƏKLƏRİN HÖKMDARI" KİTABINDA ARXETİPLƏRİN TƏDQİQİ (3-cü məqalə)

***Xülasə.*** *Məqalədə William Qoldinqin "Milçəklərin hökmdarı" romanı simvolik və fəlsəfi aspektlərdən təhlil edilir və Saymon obrazının ideya-mənəvi yükü ön plana çıxarılır. Müəllif göstərir ki, Saymon intuitsiya, vicdan və insan təbiətinin saf başlanğıcını təcəssüm etdirən obrazdır. Onun dağa qalxaraq varlığın həqiqi mahiyyətini dərk etməsi idrakın yüksəlişi və gerçəkliyin mənəvi təhlili ilə əlaqələndirilir. Məqalədə romanın əsas simvolları – conch shell (ictimai nizam və demokratiya), Piggy-nin eynəyi (ağıl və rasionallıq), ocaq (mədəniyyət və ümid) və donuz başı (Lord of the Flies – insanın daxilindəki şər instinkti) – geniş şəkildə izah edilir. Saymon obrazı həm dini (İsa Məsihə bənzətmə), həm də psixoanalitik (Freydin "İd" konsepsiyası) kontekstdə təhlil olunur və bu yanaşma əsərdə insan təbiətinin ikili xarakterini – sivilizasiya ilə barbarlıq, şüurla instinkt arasında qarşıdurmanı üzə çıxarır. Məqalənin sonunda belə nəticə alınır ki, Qoldinq insanın içindəki şər qüvvəni xarici amil kimi deyil, məhz varlığının ayrılmaz tərkib hissəsi kimi təqdim edir. Beləliklə, əsərdə sivilizasiyanın dağılması insanın mənəvi dəyərlərdən uzaqlaşması ilə əlaqələndirilir və Saymon bu mənada insanlığın itirilmiş vicdan səsi kimi şərh olunur.*

***Açar sözlər****: simvolizm, insan təbiəti, şər instinkti, Id konsepsiyası, sivilizasiya və vəhşilik*

İlk zamanda qəza nəticəsində adaya düşən uşaqlar sivil qaydaların təsirindən uzaq, məmnunluq içərisində fitri duyumla yaşamağa davam edirdi: yetişmiş meyvələrdən yeyir və ovçuluqla məşğul olurdular. Saymon isə meşəni tədqiq etməyə çalışırdı. O, təbii gözəllikdən məst olmuş halda sanki öz təbiəti ilə harmoniya yaradan sehrli məkanı kəşf etməyə cəhd edirdi. Saymon təbiətin həqiqi sirlərini intuisiya vasitəsilə öyrənirdi. Saymon daxili gücünün – uzaqgörənlik və dərindüşüncəlilik sayəsində insani varlığının təbiətinin dəyişilməz olduğunu təsdiqləyirdi. Məhz bu səbəbdən o, Bilzibubun adasında sadist və azğınların arasında müsbət qəhrəman kimi qala bilmişdir.

Uşaqlar özlərini cəhənnəmin cəngəlliklərində hiss etdikləri zaman Saymonun nəzərində insan dərhal "ikiləşmişdir". O düşünürdü ki, insan həm qəhrəman, həm də xəstə ola bilərdi ("thought of the unknown beast, there rose before his inward sight the picture of human immediately heroic and sick") [7].

Qoldinq Saymonun insan haqqında düşüncəsinin iki xülyadan ibarət olduğunu əks etdirirdi. Saymonun nöqteyi-nəzərindən insanın 'yaxşı özü' onu yaxşı rəftar etməyə, qəhrəman olmağa vadar edirdi. Real həyatda insan dəfələrlə bu nüansı təcrübədən etmişdir. Lakin insanın 'pis özü' ona üstün gələrsə, onun psixoloji sağlamlığı sabit deyildir.

Saymon yalnız insan oğlunun tarixini və həqiqətini hiss etmirdi, həm də onun təbiətinin fəlsəfəsini duyurdu. Digər uşaqlar isə qeyri-iradi, ilkin instinktlərlə azğınlıq davranışlarını davam etdirirdilər. Adada qəfildən peyda olunan vəhşi varlıq haqqında hər bir personajın fikri və qərarı fərqli idi. Saymon isə real skeptik kimi dağa dırmaşmalı olduqlarını əmimliklə söyləmişdir ("I think we ought to climb the top of the mountain"). Uşaqlar isə çaşqınlıq içərisində nə etməli olduqlarını düşünürdülər [4]. Saymon heç kimə və heç nəyə məhəl qoymadan tərəd-

düdsüz dağın başına dırmandı. O düşünürdü ki, dağın zirvəsindən heç bir həyati təhlükə olmadan bədheybət varlığı müşahidə edə bilərdi. Saymon zülmət meşədə ruhi vəziyyətinə inamı sayəsində ölümdən və vəhşi hesab etdikləri varlıqdan qorxmadan dağa tərəf getdi. Saymon milçəklərin hökmdarı ilə söhbət etdiyi zaman artıq bədheybətin nə olduğundan xəbərdar idi. O bilirdi ki, o heç də vəhşi varlıq deyil, ölmüş paraşütçünün cəsədidir.

Saymon hamıdan öncə həqiqəti anlamışdır ki, naməlum varlıq qorxusuz və ziyansızdır ("harmless and horrible") [6]. Qoldinq inandırmağa çalışırdı ki, əgər biz insanın təbiətinə xas pis xüsusiyyətləri haqqında doğruları bilsək, özümüzü onlardan təmizləyə bilərik və yalnız o zaman vəhşi varlıq ziyansız ola bilər, əks halda o həmişə qorxuludur. Saymon milçəklərin hökmdarının hədələrini təkzib edə bildi və yaxşı xəbəri sahildə uşaqlara çatdırmaq üçün ora yollandı [8].

Lakin həqiqəti çatdırmadan öncə Bilzibubun amansız niyyəti yerinə yetirildi. Saymon öz yoldaşlarının iti canyaqları və pəncələri arasında həlak oldu. Saymon müqəddəs varlıqların müqəddaratını eyni olaraq yaşamalı oldu. Onun həlak olması qəhrəman, müqəddəs, şəhid insanların, əsasən dini məsələləri bağlı olan ölüm hadisələri ilə eyniləşdirilirdi.

Saymonun ölümü adanı nəhəng tufan dalğaları bürüyən zaman baş vermişdir. Qoldinq bu məqamı təsadüfi seçməmişdir. Saymonun amansız qətlindən, tufanın hiddətindən, ritualın təsirindən sonra yalnız təbiətə sığınmaq və orada sakitləşmək olardı. Bu səbəbdən biz faciə mühitindən müqəddəslərin mədhinə dönürük.

Kitabda obyekt, xarakter, rəqəm və rənglər abstrakt ideyalar və konseptləri təqdim etmək üçün simvollar kimi işlədilmişdir. Məsələn, balıqqulağı (conch shell) sivilizasiya və nizamın simvolu kimi işlədilmişdir. Balıqqulağı vasitəsilə uşaqların toplantısı idarə olunurdu. Balıqqulağını əlində tutan oğlanın danışmaq hüququ var idi. Dəstə üzvləri arasında Piqi daha rasional və dərakəli hesab edilirdi. Onun eynəyi cəmiyyətdə elmin gücü və intellektual cəhdləri təcəssüm edirdi. Eynəyin simvolik önəmi romanın ilk səhifələrində – oğlanlar ocaq qalamaq üçün günəşin şüasının düzgün təyini zamanı Piqinin eynəyinin linzalarından istifadə etmişdilər. Cekin ovçuları Ralfın düşərgəsinə basqın edərkən eynəyi oğurlamışdı və azğınlığın miqyası artmış və Ralfın dəstəsiköməksiz qalmışdır. Siqnal-ocaq oğlanların sivilizasiya ilə əlaqə yarada bilməsi üçün barometr rolunu oynayırdı. Alovun işığı azaldıqda və ya söndükdə uşaqların ümidləri də sönürdü. Onlar artıq sivil həyata qovuşa bilmədiklərini sanki qəbul edir və daha da azğınlaşırdılar. Alov sivil instinktlərin gücünü nizamlayırdı. Kitabın sonunda uşaqlar doğrudan da alov vasitəsilə xilas ola bildu. Lakin bu, siqnal-alovun yox, yanan meşənin tüstüsü idi. Cek və onun dəstəsinin vəhşiliyi nəticəsidə meşəyə od düşmüşdür.

Uydurma yırtıcı heyvan isə bütün insanların içində mövcud olan ilkin vəhşilik instinktinin simvoludur. Oğların hər biri vəhşi heyvandan qorxsa da, yalnız Saymon fikirləşirdi ki, yırtıcılıq hissi onların öz daxili səsidir. Uşaqlar azğınlaşdıqca vəhşi heyvan da onların gözündə daha da böyüyürdü. Kitabın sonunda uşaqlar totem Allah yaratdılar və xəyallarını gerçəkləşdirdilər. İbtidai icma quruluşu dövründə əcdadlarımızı hər hansı bitkini və heyvanı inanc sayəsində bütləşdirib sitayiş etdikləri kimi uşaqlar da milçəklərin hökmdarına ibadət etməyə başladılar.

Kitabda təqdim edilən ən mürəkkəb qavranılan ifadə "milçəklərin hökmdarı" adlandırılan qanlı kəsik donuz başıdır. Cek onu talada payanın ucuna keçirtmiş və sanki yırtıcı varlığa meydan oxuyurdu. Saymon isə talada onunla qarşılamış və söhbət etməyə cəhd etmişdir. Cek bütə vəhşi hisslərin insanın qəlbində olduğunu söyləyirdi. O, bütlə əyləncəli vaxt keçirtmək arzusunda idi. Əyləncəli vaxt ifadəsi Saymonun növbəti fəsildə öləcəyinə işarə kimi işlədilmişdir. Beləliklə, milçəklərin hökmdarı həm yırtıcı heyvanın manifestasiyasına, həm də şərin simvoluna çevrilmişdir. Uşaqların tapındığı büt onların qəlbindəki vəhşiliyi oyadan şeytanın simvolunu təqdim etmişdir.

Kitabın əsas konsepti "bəşəriyyət yaxşılıq, yoxsa pisliq üzərində qurulmuşdur" fikri əsasında mərkəzləşdirilmişdir. İlk əvvəllər uşaqlar qaydalar əsasında cəmiyyət yaratmaq niyyətində idilər. Lakin sonradan onların qorxu və təşvişləri sonsuza qədər artdıqda, onlar qruplara

parçalandılar və yenicə qurulmuş sivilizasiya zorakılıq və xaos şəkli almışdır. Nəhayətdə, kitabın müəllifi qeyd edir ki, əxlaq qayadaları cəmiyyətin insanların rəftarlarına süni təsiri nəticəsində yaranan şərtlərdir.

Kitabda təqdim edilən mövzulardan biri illüziya və reallıq üzərində qurulmuşdur. Yırtıcının peyda olması illüziya olsa da, uşaqların inamı real həyat münasibətlərinə əsaslanmışdır. Uşaqların illüziyalara inamı tədricən böyüyür və təyyarəçi-paraşütçünün timsalında fiziki forma almışdır və sonradan oğlanların rəftarlarında yaranan vəhşilik sürətlə artdı. Sayman çalışırdı ki, yaranmış illüziyalara son qoysun, lakin o da öldürüldü. Uşaqların əksəriyyətinin rəftarları üçün əsas motivasiya mənbəyi qeyri-rasional qorxu və xəyali nəhəng varlıq idi. Xəyali elementlər dəyişdikcə və ya yox olduqda yenicə formalaşmış cəmiyyət də yox olur.

Kitada daha bir mövzü nizam-intizam və xaos arasındakı gərginlikdir və bu münasibət “Lord of the Flies” (”Milçəklərin hökmdarı”) romanında əvvəldən axıra qədər davam etmişdir.

Ralf və Cek bu spektrin əks qütblərini təqdim edirdi. Ralf qaydalara əsaslanan hakimiyyət qurmaq niyyətində olduğu halda, Cek xaotik zorakılığa sövqlənirdi. Uşaqlar əvvəlcə cəmiyyətdə qazandıqları köhnə qaydalarla rəftar etməyə çalışsalar da, sonradan xilas olunmaq üçün ümidlərini itirdikdə xaosa doğru sürətlə sürüklənirdilər. Uilyam Qoldinq izah etməyə çalışırdı ki, böyüklərin mənəviyyatı da eyni zamanda davamsız xüsusiyyətlər üzərində qurulmuşdur. İnsanlar qurduqları cəmiyyətdə ədliyyə qurumları sistemi və mənəvi kodlarla idarə olunurlar. Lakin bu kodlar ləğv olunarsa, cəmiyyət bir anda süquta uğrayar.

“Lord of the Flies” (”Milçəklərin hökmdari”) kitabının yazı üslubu dəyişkən halda təqdim edilmişdir. Uşaqların başı bir-birilə söhbətə qarışdıqda, müəllif yaranan imkandan istifadə edərək adanı və ətraf mühiti təsvir edirdi. Qoldinq fikirlərini sərrast ifadə etmək üçün alleqorik təsvirlərdən bolluca istifadə edirdi. O, mücərrəd fikirlərin sayəsində nəzərdə tutduğu konsept və ideyaları xarakterlərin timsalında təqdim edirdi. Nəticədə xarakterlər öz rəftarlarında könüllü hərəkət etmirdi. Hər bir personaj Qoldinqin dünyanı görə bildiyi əsaslarla davranırdı. Ralf hakimiyyəti hətta özünə tam bəlli olmayan qaydalarla idarə etməyə çalışırdı. Piqi isə qaydalara və rasionalizmə əsalanırdı. Ralf və Piqidən fərqli olaraq, Cek primitiv meyilləri və impulsları izləyirdi. Saymon isə bütün uşaqlardan fərqli olaraq fikirlərə qərq olmuş və nicat yolu axtarırdı. Nobel mükafatı laureatı Uilyam Qoldinq mənəviyyat və insan təbiəti haqqında problemləri təkrar-təkrar ortaya qoymaqla düşündürücü bir mənzərə yarada bilmişdi.

“Lord of the Flies” (”Milçəklərin hökmdarı”) kitabı zamanında müasirləri tərəfindən olduğu kimi, bugün də yazarların böyük rəğbətini qazanmışdır. Kitab distopik və mücərrəd xüsusiyyətləri ilə müəllifinə qatqısız uğur qazandırmışdır.

“Milçəklərin hökmdari” romanında Uilyam Qoldinq iudaizm və xristianlığa xas olan insan təbiəti və cəmiyyət haqqında mifologiyaya əsaslanan alleqoriya vasitəsilə sosioloji və siyasi hipotezanı mükəmməl şəkildə qura bilmişdir. Romanın sərlövhəsi ikili məna kəsb etsə də, hər iki şərh dini əhəmiyyət daşıyır. İlk versiya hələ Şekspirdən dörd əsr əvvəl yaşamış Britaniya kralı Ler haqqında Cefri Monmoutun yazıya aldığı mifoloji mənbəyə istinad edilmişdir. “As flies to wanton boys, are we to gods” (“Milçəklər məsuliyyətsizlik edən oğlanları, biz isə Allahları təmsil edirik”) – mifik hekayənin ilk misrası kimi verilmişdir. İkinci versiya yuxarıda deyidiyi kimi qədim yəhudi dinində Balzevuva və ya Yunan dilində Bilzibuba istinad edilmişdir və milçəklərin hökmdarı və ya satananın sinonimi kimi qəbul edilməkdədir [7]. Əlbəttə, U.Qoldinqin kitabında satanik qüvvələrin adada yaratdığı heyratamiz vəhşiliklər insan psixikasından – ruhi halından yaranırdı. Uşaqların beyni sanki elə qurulmuşdur ki, onların psixikası ətraf aləmi necə əksetdirmə xassəsinə malik idisə, eləcə də rəftarlarını nümayiş etdirirdilər. Lakin iudaizm və xristianliq məxsus mifdə ekstern, fövqəltəbii krallıq hökm sürürdü.

Uilyam Qoldinq dini mənbəyə istinad etməklə Ziqmund Freydin konseptindən çıxış edirdi. Uşaqların qeyri-əxlaqi davranış instinktləri onların sağ qalabilmə hisslərini qeri-iradi idarə edirdi. Şərin xarakterinə məxsus xüsusiyyətlər uşaqların məqsədlərinə birbaşa təsir edirdi və ya istiqamətləndirirdi. Aydındır ki, milçəklərin hökmdarı payanın ucuna sancılmış do-

nuz idi və ruhi olaraq Saymonu motivasiya edirdi. Adadakı digər oğlanlar üçün Saymon peyğəmbər-şəhid rolunu yerinə yetirmişdir.

Əlavə olaraq qeyd etmək lazımdır ki, elm, mifoligiya və soyuq müharibənin sosial-siyasi konteksti ilə yanaşı "Lord of the Flies" ("Milçəklərin hökmdarı") romanı əvvəlki abstrakt ədəbi əsərlərin (speculative fiction) böyük təsirinə məruz qalmışdır. Xüsusilə, Qoldinq romanda R.M.Balantinin 1857-ci ildə dərc edilən "Coral İsland" ("Mərcan adası") əsərinə istinad etmişdir. Məlumdur ki, Balantinin romanındakı hadisələr səhralıq olan adada dar vəziyyətdə olan uşaqların vəziyyətindən bəhs edirdi. Uilyam Qoldinq Balantinin yaranmış situasiyada təqdim etdiyi interpretasiyanı bəsit və həqiqətə uyğun olmayan hal kimi dəyərləndirirdi. Qoldinqin "Lord of the Flies" ("Milçəklərin hökmdarı") romanı "Coral İsland" ("Mərcan adası") əsərinə birbaşa tənqid kimi yazılmışdır.

Doğrudur, U.Qoldinq Balantinin əsərinə daxil olan xarakterlərdən ikisinin adını olduğu kimi saxlamışdır. Ralf və Cekin adlarını eyniləşdirməklə müəllif daha dərin müqayisələr yaratmaq niyyətində olmuşdur. Mərcan adasının müvəqqəti sakinləri xoş macəralar yaşadıqları halda, Qoldinqin qəhrəmanları aclıq, tənhalıq içərisində siyasi konfliktlərin ölümcül nəticələrini yaşamağa məhkum olmuşdular. Lakin U.Qoldinqin əsas məqsədi yalnız iki kitabdakı hadisələri müqayisə etmək olmamışdır, o həm də pessimistik əhvali-ruhiyyə yaratmaqla demokratik sivilizasiyanın zəruriliyini qabartmışdır.

Tədqiqatçılar "Milçəklərin hökmdarı" romanı və Cozef Konradın 1902-ci ildə nəşr etdirdiyi "Heart of Darkness" ("Qaranlığın ürəyi") qanunlara əsaslanan kitabı arasında əlaqə olduğunu qeyd edirlər. Adı çəkilən romanda əsgərin səyahət etdiyi Afrika ölkəsində mövcud olan sivilizasiyanın marqinal vəziyyətini əks etdirirdi. Roman bəzi nüansları – Afrikanın heç bir sosial qaydaların olmadığı yerləri, anarxiya vəziyyətini, ölümün və nizamsızlığın baş alıb getdiyini təsvir etmişdir. Kitabda müəllif eyni problemlərin hər bir fərdin qəlbinin səsi olduğunu bildirmişdir.

Uilyam Qoldinq Konradın yaradıcılğında olduğu kimi insanın heyvani və zoraki impulslarının məhz siyasi qaydaların yoxluğu şəraitində peyda olunduğunu vurğulamışdır. Kitabda simvolik qəhrəmanlardan biri də Royal Neyvi gəmisinin kapitanı britaniyalı məsul şəxs dənizçi zabitdir. Əsərin sonuna doğru peyda olan bu personaj adaya alov-siqnalın qurulmasından sonra gəlmişdir. Adaya daxil olan dənizçi zabit ilk öncə Ralfla qarşılaşmışdır. Ralf xilas olmaq üçün Cekin ovçularından qaçırdı. Məsul şəxs oğlanların barbar oyun oynadıqlarını gördükdə, o, uşaqları britaniyalı imicinə uyğun olmayan çirkli və kobud davranışları üçün məzəmmət etmişdir. Zabit Ralfdan oyun və onların adadakı həyatı haqqında bəzi məqamları sorsa da, Ralf suallara cavab verə bilməmişdir, onun gözləri dolmuşdur. Ralf adada baş verən amansız vəhşilikləri zabitə anlatmaq istəsə də, Cek və onun dəstəsi onlara yaxınlaşmışdır. Uşaqlar zabitə yaxınlaşan kimi, onlar dərhal çirkli paltarlarında civil oğlanlar kimi rəftar etmişdir. Zabitin hərbi forması, qoburundakı pistolet sivil dünyanın atributlarını nümayiş etdirirdi [7]. Ümumiyyətlə, dənizçi zabit nizamı, hakimiyyəti və mədəniyyəti təmsil edirdi. Onun hərbi forması və pistoleti qanunun qurulması və idarə olunması üçün simvollar hesab edilirdi.

Cek Meridyu maskalı oğlanların lideri hesab edilirdi və o, xor dəstəsini yaratmışdır. Cek Meridyu olduqca sərt və qəddar oğlan kimi tanınırdı. O, maniplyutor kimi çox bacarıqlı idi və dominatlıq etmək üçün hadisələri necə manipulyasiya etməyi bacarırdı. Cek Meridyu adaya düşən bütün oğlanları ovçuluq dəstəsi yaratmaq adı altında bir yerə toplaya bilmişdir.

Sonralar, Cek Meridyu xüsusi bacarığı sayəsində uşaqları ələ ala bilmiş və birinci lider hesab edilən Ralfa qarşı qaldıra bilmişdir. Lakin Piqinin hadisələrə rasionalist yanaşması onu hiddətlədirirdi və nəhayət onu öldürməyi planlaşdırırdı. Cek yalnız Piqini yox, həm də Ralfı ortadan götürmək və ya qapazaltı etmək istəyirdi. Onun zorakılığa qarşı şəhvət hissi dənizçı zabitin adaya gəlməsi ilə sona çatmışdır. Zabit Ralfı ovçular dəstəsinin əlindən xilas etmişdir.

Kitabda yaşca kiçik uşaqların təmsilçisi kimi çıxış edən Pesival adlı qəhrəman da vardır. Persival kiçik xarakter olsa da, vacib personajnardan biri hesab olunurdu. O, tamamilə mə-

sumcasına hərəkət edirdi və tez-tez adını və evini çağırırdı. O, evindən və ailəsindən çox uzaqda olduğunu və onlarala əlaqə qurmağın qeyri-mümkün olduğunu anladığı zaman isterik vəziyyətə düşmüşdür. Digər yaşca böyük oğlanlar onu sakitləşdirməyə çalışsalar da, o özünü ələ ala bilmirdi. O hələki ana qayğısına möhtac olan kiçik uşaqların nümayəndəsini təmsil edirdi və ailəsindən asılı olaraq qalmışdır.

Mauris hündür, ətli-qanlı möhkəm gənc oğlan idi. O, eyni zamanda ən yaxşı ovçulardan biri hesab olunurdu. Mauris uşaqlara ovçuluğu yalnız məşqlər vasitəsilə yox, həm də zor tətbiq etməklə öyrədirdi. Uşaqların ovçuluğun sirlərini daha yaxşı öyrənməsi üçün o, özünü donuz kimi aparırdı və digər oğlanlar onu ovlamaq üçün təqib edirdilər. Mauris təfəkkürsüz insanların nümayəndəsi kimi önəmli problemlərin həllində münasibətləri götür-qoy etmədən hərəkət edirdi.

Kitabda Səm və Erik adlı iki fərqli xarakter vardır. Baxmayaraq onlar əkiz və identik idilər, uşaqlar ayrı-ayrı xarakterlər idilər. Uşaqların oxşarlığı o qədər yaxın idi ki, onlar bəzən birlikdə düşünür və danışırdılar. Uşaqlar hətta bəzən liderlərini eyni cür başa düşürdülər. Səm və Erik sona qədər Ralf və Piqiyə sadiq qalmışdır və həmçinin tonqalın qayğısına qalmışdılar. Qoldinq onları Səmnerik adlandırmaqla individualizm və onun cəmiyyətdə statusu məsələsinə toxunurdu.

Xarakterlər əsərin hansı janrda yaradılmasından asılı olmayaraq təhkiyənin ayrılmaz hissəsidir. Personajlar sosial məsələlərin inkişafında olduğu kimi, mövzu və motivlərin genişləndirilməsində mühüm rol oynayır. Xarakterlər həmçinin, əsərdə təşviş, maraq və yaradıcılıq əhvali-ruhiyyəsi yaradırlar. Onlar kitabın fabula, situasiya və süjet xəttinin qurulmasında əhəmiyyətli rol oynayır. Xarakterlərin çoxluğu kitabın fabulasının mürəkkəbliyini müəyyən edir. Uilyam Qoldinqin “Milçəklərin hökmdarı” əsərində qəhrəmanlar adada çətin vəziyyətdə qalmış uşaqlardır.

“... The hot blood spouted over his hands. The sow collapsed under them, and they were heavy and fulfilled upon her” – (“İsti qan onun əllərini örtmüşdü. Donuz onların həmləsi altında süqut etmişdir. Onlar çöx ağır və qətiyyətli idilər”) [7]. Uilyam Qoldinq ”Milçəklərin hökmdarı” romanında bu fikri yazmaqla bildirmək istəyirdi ki, məsum uşaqların rəftarları sübut edir ki, hər kəsin pislik etmək imkanları vardır. Kitabda atom bombardmanından xilas olmaq istəyən uşaqlar tamamilə süqut etdilər və vəhşi varlıqlara döndülər. Uilyam Qolding romanda oğlanların hansı şərtlər altında dəyişildiyini və insanın ilkin davranışlarını necə təkrarladıqlarını təsvir etmişdir. Baxmayaraq onların adada yeni sivil cəmiyyət qurmaq arzusu yaxşı ideya kimi səslənirdi, sonradan bu fikir pisliklərin təsiri altında idarə olunan vəhşi insan toplantısının – qəbiləsinin yaranmasına səbəb oldu.

“Lord of the Flies” (”Milçəklərin hökmdarı”) kitabı üçüncü şəxsin dilindən təhkiyə edilir. Təhkiyəçi hər bir xarakterin daxili səsini təmsil edir, bəzi vaxt isə onların fikirlərini və hisslərini ifadə edir. Təhkiyəçi ancaq çalışır ki, xarakterlərin nə düşündüklərini təfərrüatı ilə təsvir etsin. Təhkiyəçi daha sonra xarakterlərin nə etdiklərini, onların davranışlarını və münasibətlərini olduğu kimi təsvir etməyə çalışırdı. Təhkiyəçinin qənaətləri onun obyektiv müşahidələrinə əsaslansa da, o bəzən xarakterlərin nöqteyi-nəzərlərini də izləyirdi. Təhkiyəçi daha çox Ralf, Cek, Saymon və Piqqinin nöqteyi-nəzərlərini diqqət mərkəzində saxlayırdı.

U.Qoldindinq bilərəkdən oxucuya imkan yaradır ki, o, xarakterlərin iç dünyasını, şüurunda olanları və davranışlarını diqqətlə müşahidə edə bilsin. Təhkiyəçi vasitəsilə yaradılan bu imkan xarakterlər haqqında daha dürüst fikirlər deməyə əsas yaradır. Məsələn, oxucu paraşütçünün adaya endiyinin şahidi olsa da, uşaqlar onu vəhşi varlığa bənzədirlər. Saymon bu sirri öyrəndikdə məhz oxucu bu haqda məlumatlandırılır, lakin digər oğlanlar məsələdən bixəbər qalırlar.

Düzdür, romanın sonunda Ralf və digər uşaqlar adadan azad olurlar, lakin bu təsadüfən baş vermişdir. Cek Ralfa nifrət etdiyi üçün onu öldürməyi qərarlaşdırmışdır. O, ovçulara meşənin bir hissəsini yandırmağı əmr etmişdir. Bu zaman yaxınlıqdan keçən gəmi alovu görmüş

və adaya məsul şəxs göndərmişdir. Cekin Ralfa nifrət etməsi səbəbsiz deyildir. Cek Ralfdan fərqli olaraq daha çox prioritetlərə malik olsa da, açıq səvermədə Ralf lider seçilmişdir. Cek ovçuluğun sirlərini bilirdi və onun yumor hissləri var idi. Cek sivilizasiyanın önünə keçmək və xilas olunmaq üçün mübarizə edirdi. Cek və Ralf kitabda – "two continents of experience and feeling, unable to communicate" ("təcrübə və hissin iki qütbü kimi kommunikasiya yarada bilmirdilər") kimi təsvir edilirdi. Lakin Cek özünü təhqir olunmuş hiss edirdi və "I'm not going to be part of Ralph's lot," ("mən Ralfın dəstəsinin bir hissəsi olmaq istəmirəm") kimi fikirlə qrupu parçalaya bilmişdir [5]. Cekin bu rəftarı cəmiyyətdə mövcud olan məcburiyyət hisslərindən irəli gəlirdi. O, Ralfın rəhbərliyi altında özünü sıxıntı içərisində hiss edirdi. Cek yeni yaranan qrupa rəhbərlik edərək azğın qəbilə qura bildi.

U.Qoldinq kitabda mətnin əsas mövzularına birbaşa təsir edən və inkişaf etdirən motivlər işlətmişdir. Bəzi tənqidçilər U.Qoldinqi Bibliya ilə parallel epizodlar işlətdiyi üçün qınayırdılar. Ola bilisin bu məsələ bir az bəsit təsvir edilmişdir, lakin romanda xristianlığa xas müəyyən imic və mövzulara müraciət edilmişdir. Qoldinq kitabda xristianlığa xas simbolizmə birbaşa və ya açıq-aşkar müraciət etməmişdir, əksinə romanda Bibliyadan paralellər sərrast şəkildə motivlər kimi təqdim edilmişdir və mətnin əsas ideyasına tematik rezonans əlavə etmişdir.

Kitabda meşə, xüsusilə, Saymonun talası "Cənnət bağı" (Garden of Eden) adlandırılırdı. Məlumdur ki, Cənnət bağı şeytan tərəfindən korlanmışdır. Milçəklərin hökmdarı da eyni olaraq şeytanı təmsil edirdi və ya bəşəriyyəti məhv etmək üçün pisliyə təhrik edirdi. Bəzi tənqidçilər isə Saymon və İsa arasında paralellərin olduğunu təkid edirdilər. Oğlanların arasında Saymon ilk olaraq həqiqəti dərk etmişdir və bildiyi həqiqət yolunda qurban getmişdir. Saymonun milçəklərin hökmdarı ilə söhbəti xristianlığın müqəddəs kitabı – Qospeldə deyildiyi kimi İsanın çöllükdə qırxıncı gün şeytanla üzləşməsi və söhbət etməsi səhnəsini xatırladırdı.

Lakin qeyd etmək lazımdır ki, "Milçəklərin hökmdarı" kitabında Saymon və Xristos arasındakı paralellər tam deyildir. Saymonun gələcək haqqında öncədən xəbərdarlığı olsa da, onun xristian ənənələrində olduğu kimi Allahla fövqəltəbii bağlantıları yoxdur.

Baxmayaraq Saymon bir çox məsələlərin həllində müdrikcəsinə hərəkət edirdi, onun ölümü adaya qurtuluş bəxş etmədi, əksinə adanı daha dərin vəhşiliyə və mənəviyyatsızlığa sürüklədi. Əlavə olaraq, Saymon həqiqəti söyləyə bilmədən öldü. İsa Xristos isə öz missiyasını icra edərkən öldürülmüşdür. Beləliklə, Bibliyadan olan paralellər kitabın əsas mövzusunu inkişaf etdirdi, onun interpretasiyası üçün əsas nüanslar deyildir.

***İşin elmi yeniliyi.*** Tədqiqatda Uilyam Qoldinqin "Milçəklərin hökmdarı" romanı Saymon obrazı əsasında yeni rakursdan təhlil edilir və insan təbiətindəki şərin mənşəyi dini-alleqorik, psixoanalitik və sosial kontekstlərin sintezi ilə izah olunur. Məqalə həmçinin Freydin *Id* konsepsiyası ilə romanın simvolizmi arasında yeni əlaqələndirmə aparır və əsərdəki əsas simvolların (balıqqulağı, ocaq, donuz başı və s.) insan psixikasının parçalanması ilə bağlı interpretasiyasını ilk dəfə kompleks şəkildə təqdim edir. Tədqiqat işi əsərdəki dini motivlər və xristian paralellərinin strukturlaşdırılmış təhlili ilə mövcud ədəbiyyata əlavə elmi yanaşma gətirir.

***İşin tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi.*** Uilyam Qoldinqin yaradıcılığını araşdıran alimlər, müəllimlər, filologiya fakültəsinin tələbələri üçün yardımçı vasitə ola bilər. Araşdırılmış mövzu XX əsr ingilis ədəbiyyatı üzrə xüsusi kurslarda, diplom, magistr və dissertasiya işlərinin yazılmasında tətbiq oluna bilər.

**Ədəbiyyat**


1. Baker, James R. William Golding / Baker James R. – New York: St.Martin‟s Press, – 1965. –106 p.
2. Bloom, Harold, Ed. Lord of The Flies / Modern Critical Interpretations. –New York: Chelsea, House Publishers, – 1998. – 185 p.
3. Golding, W. The Inheritors. Harcourt, Brace and World / W. Golding. – 1962, – 233 p.
4. Olsen, K. Understanding Lord of The Flies:A Student Casebook to Issues, Sources, And Historical Documents / K.Olsen. –CT: Greenwood Publishing Group, –2000, – p.236-238.

5. Swisher, C. Ed. Readings upon Lord Of The Flies / C.Swisher. –San Diego, – CA: Greenhaven Press, – 1997. – 170 p.
6. Williams, N. Adaptor. William Golding‵‵s Lord of The Flies: Acting edition / N.Williams, – London, – 1996. – 251 p.
7. //www.sparknotes.com/lit/flies/motifs/
8. https://www.sparknotes.com/lit/flies/symbols/

**P.G.Aliyeva**

**The Research of Archetypes in William Golding's "Lord of the Flies"**

***Summary***

The article analyzes William Golding's *"Lord of the Flies"* from a symbolic and philosophical perspective, focusing on the character of Simon as the embodiment of intuition, conscience, and moral purity. His ascent to the mountain is interpreted as a metaphor for spiritual enlightenment and recognition of the essential truth that evil originates within human nature rather than external forces. The paper examines key symbols in the novel – such as the conch shell (order), Piggy's glasses (reason), fire (hope and civilization), and the pig's head or "Lord of the Flies" (inner evil) – to highlight the conflict between civilization and savagery. Drawing on religious and psychoanalytic approaches, particularly Freud's concept of the *Id*, the article suggests that Simon represents the suppressed moral voice of humanity. Ultimately, Golding demonstrates that the collapse of civilization leads to the dominance of primal instincts, exposing the inherent darkness within the human soul.

***Keywords:*** *symbolism, human nature, evil instinct, Id concept, civilization vs savagery*

**П.Г.Алиева**

**Исследование архетипов в романе Уильяма Голдинга «Повелитель мух»**

***Резюме***

В статье анализируется роман Уильяма Голдинга *«Повелитель мух»* с символической и философской точки зрения, при особом внимании к образу Саймона как воплощению интуиции, совести и нравственной чистоты. Его восхождение на гору интерпретируется как метафора духовного прозрения и осознания того, что источник зла заключается не во внешних силах, а внутри человеческой природы. В работе подробно рассматриваются ключевые символы романа – раковина (порядок и социальная структура), очки Пигги (разум и рациональность), костёр (культура и надежда), а также голова свиньи – *«Повелитель мух»* (внутренний инстинкт зла), подчёркивающие конфликт между цивилизацией и дикостью. Используя религиозный и психоаналитический подходы, особенно концепцию *«Id»* по Зигмунду Фрейду, автор статьи приходит к выводу, что Саймон представляет подавленный нравственный голос человечества. В конечном итоге Голдинг демонстрирует, что разрушение цивилизации приводит к господству первобытных инстинктов, раскрывая внутреннюю тьму человеческой души.

***Ключевые слова:*** *символизм, природа человека, инстинкт зла, концепция «Id», цивилизация и дикость*

*Rəyçi: filol.ü.f.d., dos. X.G.Əliyeva*

*Redaksiyaya daxil olub: 12.11.2025*